Müstəqil ictimai-siyasi, publisistik qəzet № 14 (1094) 06 aprel 2022-ci il

Kredo.-S.1.

# ƏNVƏR ÇİNGİZOĞLU - 60

# HƏYATIN YARATDIĞI ƏSƏR



## FAKTLARIN İŞIĞINDA

Ənvər Çingizoğlu Fərəcov azərbaycanlı yazıçı, publisist, geneoloq, etnoqraf və ssenaristdir. Tarixi etnoqrafik araşdırmaları ilə nəinki Azərbaycanda, İranda, Türkiyədə, Dağıstanda, Türkmənistanda, İraqda... çox geniş ərazidə tanınır, təqdir olunur.

O, 10 may 1962-ci ildə Cəbrayıl rayonunun Xudayarlı kəndində anadan olub. "qızıl qələm" media mükafatı laureatıdır (2012), Əməkdar mədəniyyət işçisidir (2019), Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvüdür.

Ənvər Çingizoğlu əslən Füzuli rayonunun Aşağı Yağləvənd kəndindəndir. 8-ci sinfə qədər Stansiya Xələfli kənd məktəbində (1969-1977), sonra Bakı şəhəri 2 saylı Dəmir Yolu Liseyinin Azərbaycan bölməsində (1977-1980) təhsil alıb.

Geniş mütaliə, fitri istedad onu həmişə sözə doğru çağırıb. Və nəhayət, Ənvər Çingizoğlu Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində (1985-1990) ali təhsil alıb. O, 1991-ci ildən 1993-cü ilə qədər Füzuli rayonunda çıxan "Araz" qəzetində ədəbi işçi kimi çalışıb. Gənc yazıçı Ənvər Çingizoğlu mətbuata qədəm qoyandan bəri etnoqrafik tədqiqatı özü üçün əsas fəaliyyət sahəsi kimi seçib. O, 1994-cü ildən 2014-cü ilin mart ayınadək AzTv-nin redaktoru, böyük redaktoru, şöbə müdiri vəzifələrində çalışıb. 2014-cü ilin mart ayından Azərbaycantelefilmin baş redaktor müavinidir. O, həm də "Say" dərgisinin baş redaktorudur.

Uzun illərdən bəri folklor, etnoqrafiya, geneologiya sahələrində araşdırmalarını davam etdirir. Azərbaycanın xanlıqlar dövrü tarixi, diplomatiya tarixi və İran tarixinə dair yüzdən çox monoqrafiya, kitab, dərs vəsaiti, elmi, elmi-publisistik əsərlərin və nəşrlərin müəllifidir. Onun ssenariləri əsasında "Avşarlar", "Xurşid Banu Natəvan", "Nəvvab", "Kəminə" adlı filmləri çəkilib. Bir çox beynəlxalq kofrans və simpoziumların iştirakçısıdır. Ardıcıl olaraq beynəlxalq tədbirlərdə məruzələri ilə çıxış edir.

Konkret olaraq onun elmi tədqiqat fəaliyyətini iki istiqamətə ayırmaq olar: Azərbaycan xalqının soykökünün araşdırılması və Azərbaycan xanlıqlar tarixinin tədqiqi.

***Ənvər Çingizoğlu məhsuldar ədəbi-elmi fəaliyyətini bu gün də davam etdirir. 60 illik yubileyini Qarabağda qeyd etmək onun ən böyük arzusudur. Və özü bunu fərəhə bildirir ki, tarix bu arzusunu yerinə yetirməkdə arzusunu gözündə qoymadı.***